# Cümhuriyyətin 101 illiyi qeyd olunub



Heydər Əliev Mərkəzində Respublika Günü münasibətiə tədbir keçirilib.

Tədbirdə mərkəzin direktoru əvəzi Kəmalə Qasımova müsəlman Şərqində ilk demokratik, dünyəvi dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin Azərbaycan xalqının tarixinə böyük və əlamətdar hadisə kimi daxil olduğu barədə ətraflı məlumat verib.

Cümhuriyyətin ölkəmizin çoxəsrlik tarixi inkişafının, milli azadlıq mübarizəsinin məntiqi nəticəsi olduğunu qeyd edən natiq cəmi 23 ay fəaliyyət göstərməsinə baxmayaraq müstəqil dövlətçiliyimizin əsaslarının yaradılması və gələcək inkişaf yolunun müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb etdiyini bildirib.

Mərkəzin əməkdaşı Sədaqət Kazımova çıxışında 1991-ci ildə ölkəmizin dövlət müstəqilliyi bərpa edildikdən sonra mürəkkəb vəziyyətdə qalan Azərbaycanın ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında öz müstəqilliyini və suverenliyini qorumağı və möhkəmləndirməyi bacardığını diqqətə çatdırıb.

O, dövlətçiliyin inkişaf etdirilməsi üçün bu gün Prezident İlham Əliyev tərəfindən qətiyyətli tədbirlərin görüldüyünü, ölkədə ictimai-siyasi sabitliyin bərqərar edildiyini və respublikanın hərtərəfli inkişafı naminə ulu öndərin bütün ideyalarının uğurla davam etdirildiyini söyləyib.

**Aygün MƏMMƏDOVA,**
**mərkəzin kiçik elmi işçisi.**

# Maarifləndirmə tədbiri

Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzi tərəfindən "İnsan alverinin qurbanı olan uşaqların təhsillərini davam etdirmək imkanlarının təmin edilməsi" mövzusunda tədbir keçirilmişdir.

Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində baş tutan tədbirdə UADM-nin kollektivi və təhsil mərkəzinin müəllim və tələbələri iştirak etmişlər.

Tədbiri giriş sözü ilə açan mərkəzin direktoru Günel Ağayeva insan hüquqları aylığı çərçivəsində insan alverinin qurbanı olmuş uşaqlara və gənclərə təhsillərini davam etdirmək imkanlarının yaradılması və onların yaşadığı yer üzrə təhsil müəssisələrinə cəlb edilməsi sahəsində aparılan maarifləndirmə işləri haqqında məlumat vermişdir.

Tədbirdə iştirak edən rayon polis şöbəsinin inspektoru, polis kapitanı Azər Hüseyinov 2007-ci ildən etibarən 18 iyun tarixinin "İnsan Hüquqları Günü" kimi qeyd edildiyini vurğulamış, ölkəmizdə insanların bütün sahəni əhatə edən hüquqlarının qanunla mühafizə olunduğunu bildirmişdir.

Tədbirin sonunda uşaqları maraqlandıran saullar cavablandırılmışdır.

**Hökümə İSMAYILOVA,**
**mərkəzin sosial iş üzrə mütəxəssisi.**

# Arxeoloji tapıntıların tarixi müəyyən edilib

Azərbaycan Milli Elmlər Akademiyasının Radiasiya Problemləri İnstitutunun arxeoloji tapıntıların tarixləndirilməsi qrupu mühüm nəticələr əldə edib.

Arxeoloji qazıntının aparıldığı bölgələrdən müxtəlif dövrlərə aid nümunələr götürülərək institutun xüsusi laboratoriyasında analiz edilib.

Tədqiqatlar zamanı rayonumuzun Çuxur Qəbələ kəndi yaxınlığında olan Qalayeri ərazisindən götürülən diş nümunəsinin eramızdan əvvəl 3514-cü ilə aid olduğu müəyyən edilib.

**"Qəbələ"**

# Gələn il Bakı-Qəbələ qatarı istifadəyə veriləcək

Gələn ilin ikinci yarısından sərnişinlər Bakı-Qəbələ sürət qatarından istifadə edə biləcəklər.



AZƏRTAC xəbər verir ki, bu barədə "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov deyib.

QSC sədri qeyd edib ki, Ləki stansiyasından başlayaraq 45 kilometrlik yolun yarısı artıq çəkilib: "Hesab edirəm ki, ilin sonuna torpaq yatağı işləri də tam başa çatdırılacaq. Sərnişinlər Qəbələyə 2,5 - 3 saata rahat və hər bir şəraiti olan vaqonlarla gedə biləcəklər".

# Şəffaflıq artırılır

***Müasir dövrümüzdə vətəndaş məmnunluğunun təmin edilməsi, şəffaflığın artırılması elektron mühitin genişləndirilməsi ilə birbaşa bağlıdır.***

***Qəbələ Regional Qeyri-hökümət Təşkilatlarının Təlim və Resurs Mərkəzinin may ayının 29-da ictimaiyyət üçün keçirdiyi təqdimat tədbiri də ellektron mühitin genişləndirilməsi ilə əlaqədar olmuşdur.***

Tədbiri Qəbələ Dövlət Peşə Təhsil Mərkəzinin direktoru Azad Məmmədov açmış, elektron idarətməyə keçidin əhəmiyyətindən danışmışdır. O bildirmişdir ki, tədbir bu gün aktual olan bu məsələyə həsr olunmuşdur.

Qəbələ Regional Qeyri-hökümət Təşkilatlarının Təlim və Resurs Mərkəzinin direktoru Səbuhi Nəbiyev bildirmişdir ki, Azərbaycan Respublikası Prezidenti yanında Qeyri-hökümət Təşkilatlarına Dövlət Dəstəyi Şurası tərəfindən təqdim olunan layihələrin qiymətləndirilməsinə ictimaiyyəti cəlb etmək üçün yeni qaydaların tətbiqinə başlamışdır. Belə ki, bundan sonra hər bir vətəndaş şuranın elektron ünvanına daxil olmaqla maliyyə dəstəyi almaq üçün təqdim olunmuş layihə ilə tanış olmaq və ona qiymət vermək imkanı qazanacaqdır. Bununla da şəffaf şəkildə daha çox vətəndaşın müsbət rəyini qazanmış, ictimai əhəmiyyətli layihə şura tərəfindən maliyyələşəcəkdir.



Sonra Azərbaycan Respublikası Prezidenti yanında Qeyri-hökümət Təşkilatlarına Dövlət Dəstəyi Şurasına təqdim edilmiş layihələrlə tanış olmaq və onları qiymətləndirmək qaydaları əyani şəkildə tədbir iştirakçılarına çatdırılmışdır.

Maarifləndirmə xarakteri daşıyan tədbirdə rayon icra hakimiyyətinin məsul işçisi Azər Şirinov iştirak etmişdir.

**"Qəbələ"**
**İlkin Vəlizadə (foto).**

# Əhalinin siyahıyaalınması və statistik tədqiqatlarda onun əhəmiyyəti

Siyahıyaalma hər bir ölkənin milli statistikasının əsasını təşkil edir, istər regional, istərsə də qlobal səviyyədə demoqrafik və sosial vəziyyət barədə ən vacib məlumat mənbələrindən biri hesab edilir. Dünyanın inkişaf etmiş ölkələrində əhalinin siyahıyaalınması nəticəsində əldə edilmiş səmərənin onun yerinə yetirilməsi xərcindən artıq olması qənaəti təsdiqlənib. Bundan əlavə, siyahıyaalma cəmiyyətin siyasi həyatı üçün bir növ stimuldur və ictimai resursların ədalətli istifadəsinə, paylanmasına yardım edir.

Bildiyimiz kimi əhalinin siyahiyaalınması BMT-nin tövsiyələrinə uyğun olaraq hər on ildən bir dünyanın bütün ölkələrində aparılır. Azərbaycan tarixində əhalinin siyahıyaalınması ümumilikdə 9 dəfə keçirilib.

Müstəqil Azərbaycan Respublikasında əhalinin ilk siyahıyaalınması 1999-cu ildə keçirilib. Müasir dövrdə əhalinin siyahıyaalınmasının aktuallığı qabaqcıl monitorinq tədqiqatı kimi dünyanın bütün bölgələrində əhalinin sürətli artımı ilə səciyyələnir. Ölkənin sosial-iqtisadi proseslərinin idarə edilməsi ilk növbədə əhali haqqında keyfiyyətli informasiya təminatını tələb edir. Hər bir ölkə öz ehtiyatları haqqında məlumata malik olmalıdır.

2018-ci il 1-10 oktyabr tarixində Qəbələ rayonunda əhalinin sınaq siyahıyaalınması keçirilmiş və sınaq siyahıyaalınma uğurla yekunlaşmışdır.

2019-cu il 1-10 oktyabr tarixində keçiriləcək əhalinin siyahıyaalınmasında nəzərdə tutulmuş tədbirlər proqramına əsasən son tamamlanma işləri davam etdirilir.

Rayon üzrə mövcud 64 yaşayış məntəqəsinin, o cümlədən 1 şəhər,3 qəsəbə, 60 kəndin ərazilərində mərkəzləri Qəbələ şəhər, Vəndam, Bum qəsəbələr, Mıxlıqovaq,, Mirzəbəyli, Böyük Pirəlli, Hacıalılı, və Yenikənd kəndləri olmaqla 8 siyahıyaalma məntəqəsi yaradılmışdır. Yaradılmış məntəqələr üzrə məntəqə müdirləri, təlimatçılar və sayıcılar üçün DSK-nin təsdiq etdiyi tədbirlər planında nəzərdə tutulmuş vaxtda təlimatlar keçiriləcəkdir.

2019-cu ilin 01-10 oktyabr tarixlərində rayonumuzda keçiriləcək əhalinin növbəti siyahıyaalınmasının yekunları nəticəsində əldə ediləcək statistik məlumatlar rayonumuzun gələcək inkişaf prioritetlərinin düzgün müəyyənləşdirilməsində əsas informasiya mənbəyi rolunu oynayacaqdır.

Biz bütün rayon ictimayyətini 2019-cu il 1-10 oktyabr tarixində keçiriləcək əhalinin siyahıyaalınmasında fəal iştirak etməyinə dəvət edirik.

**Rayon statistika idarəsi.**

# Rayonun sosial iqtisadi inkişafı haqqında məlumat

2019-cu ilin yola saldığımız birinci rübü Qəbələ rayonu üçün uğurlu olub, iqtisadiyyatın əsas istiqamətləri olan sənaye, kənd təsərrüfatı, eləcə də sosial sahələrdə böyük nailiyyətlər əldə edilib.

### *Demoqrafiq vəziyyət*

Rayonda 1 şəhər, 3 qəsəbə, 56 kənd inzibati ərazi nümayəndəliyi və 29 bələdiyyə fəaliyyət göstərir.

1 aprel tarixə mövcud əhalinin sayı 106852 nəfər olmuşdur. Əhalinin sıxlığı hər kv km-də 68.9 nəfərdir.

Onların 13997 nəfəri, yaxud 13,1 faizi şəhər, 22225 nəfəri, yaxud 20,8 faizi qəsəbə, qalan 70630 nəfəri, yaxud 66,1 faizi kənd yerlərində yaşayır.

2019-cu ilin birinci rübü ərzində Qəbələ rayonunda 364 körpə doğulmuş və 161 nəfər ölən qeydə alınmışdır. Vəfat edənlərin 4 nəfəri 1 yaşa qədər ölən uşaqlar olmuşdur.

İlin birinci rübü ərzində keçən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər min nəfərinə doğulanların sayı 3,3-dən nəfərdən 3,4-ə nəfərə qədər artmış, ölənlərin sayında isə 1,6-dan 1,5-ə qədər azalmışdır.

Həmin dövr ərzində Qəbələ rayonunda 104 nikah və 31 boşanma qeydə alınmış, 2019-cu ilin birinci rübü ərzində və keçən ilin müvafiq dövrü ilə müqayisədə 13 nikah artmış, 5 boşanma isə azalmışdır.

### *İqtisadiyyatın ayrı-ayrı sahələri üzrə məhsul buraxılışı*

2019-cu ilin birinci rübü ərzində iqtisadiyyatın ayrı-ayrı sahələri üzrə 42230.0 min manatlıq məhsul istehsal edilmişdir ki, bu da keçən ilin həmin dövründən 1889.8 min manat yaxud 4,7 faiz çoxdur.

Rüb ərzində keçən ilə nisbətən ümumi məhsul buraxılışı kənd təsərrüfatında 1889.8 min manat, yaxud 4,7 faiz, nəqliyyatda 49.0 min manat, yaxud 4,4 faiz, ticarətdə 210 min manat, yaxud 2,3 faiz, sənayedə 2792,8 min manat, yaxud 27,8 faiz, rabitədə 18 min manat, yaxud 6,4 faiz artmış, tikintidə isə 12077 min manat və ya 12,8 faiz azalmışdır.

Bu dövrdə adambaşına düşən ümumi məhsul buraxılışı keçən ilin müvafiq dövrü ilə müqayisədə 14 manat və ya 3,7 faiz artaraq 395 manata çatmışdır.

**(Ardı gələn sayımızda).**